5 may 2014-cü il tarixində Yaponiya hökümətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində Qax və Zaqatala Rayon İcra Hakimiyyəti Başçılarının iştirakı ilə aşağıdakı iki Açılış Mərasimi keçirilmişdi.

**1. “Qax rayonunda tullantıların idarə olunması” layihəsi**

Layihənin əsas məramı Qax rayonunda tullantıların və təkrar istifadənin praktik olaraq davamlı şəkildə idarə olunmasının həllini təmin etmək məqsədi ilə rayondan kənarda yanma kameralarını inşa etməkdir. Layihədə faydalanacaq şəxslərin sayı 18, 675 nəfərdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği 116,185 ABŞ dolları təşkil edir.

Çoxlu sayda Qax camaatı mərasimə yığıldı



Səfir cənab Takahaşinin Azərbaycan dilində çıxışı



Yeni inşa olunmuş tullantıların idarəetmə sistemi



İcra Hakimi M.Şəkiliyev ilə danışıqlar



## 2. **“Zaqatalanın Qandax kəndində tibb məntəqəsinin tikintisi” layihəsi**

Layihənin əsas məqsədi Qandax kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər iki kəndin sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 6 040 nəfəri əhatə edir. Sözügedən layihənin ümumi dəyəri 121,938 ABŞ dolları təşkil edir.

Qandax camaatı yeni inşa olunmuş Tibb Məntəqəsində yığışdı

Stomatologiya

Tibb məntəqəsi səfirlik tərəfindən stomatoloji qurğu ilə təchiz olunub





Ginekologiya
Tibb məntəqəsi səfirlik tərəfindən ultrasəs apparatı ilə təchiz olunub

Qandax Tibb Məntəqəsinin daxili hissəsi



